Nana İoseliani
Sofio Keburia

İNCƏSƏNƏT 8

ŞAGİRD KİTABI

I HİSSƏ



Qrif Gürcüstan Təhsil, Elm, Mədəniyyət
və İdman Nazirliyi tərəfindən 2020-ci
ildə verilmişdir.

სულაკაურის
გამომცემლობა

İNCƏSƏNƏT 8

ŞAGİRD KİTABI

სულაკაურის
გამომცემლობა

MÜNDƏRİCAT

1 1 CƏMİYYƏT VƏ İNCƏSƏNƏT

Rene Maqrit,
“Qolkonda”, 1953-cü il

	İNCƏSƏNƏT CƏMİYYƏTİN QULLUĞUNDA	7
1.	MÜASİR CƏMİYYƏTİN ÇAĞIRIŞLARI	8
2.	İNCƏSƏNƏT SİYASƏTİN QULLUĞUNDA	10
3.	İNCƏSƏNƏT MÜHARİBƏYƏ QARŞI	18
4.	İNCƏSƏNƏT SOSİAL PROBLEMLƏRDƏ	26
5.	İNCƏSƏNƏT DİNİN QULLUĞUNDA	34
6.	YENİ TƏSVİRİ DİL	40
7.	XRİSTİAN GÜRCÜSTANI	52
8.	İSLAM İNCƏSƏNƏTİ	62
9.	RƏSSAMLIQ	68
10.	FARS KERAMİKASI	76
11.	İNCƏSƏNƏT TƏHSİLİN XİDMƏTİNDƏ (KALLİQRAFİYA)	78
12.	MİNİATÜR	80
13.	XRİSTİAN KULT MEMARLIĞI	90
14.	QƏRBİ AVROPANIN KULT MEMARLIĞI	100
15.	DİNİ DEKOR	108

1 CƏMİYYƏT VƏ İNCƏSƏNƏT

Rene Maqrit, “Qolkonda”, 1953-cü il

İNCƏSƏNƏT CƏMİYYƏTİN XİDMƏTİNDƏ

- İncəsənət vasitəsilə müxtəlif dövrün və mədəniyyətin cəmiyyətləri haqqında nəyi öyrənə bilərik?
- İncəsənət nümunəsinin görünüşünə hansı amillər təsir göstərirlər?
- İncəsənət hadisədən hansı bədii üslublarla xəbər verir?
- Müxtəlif dövrlərdə incəsənət nəyə qulluq edir?
- Müxtəlif dövrlərin cəmiyyəti tərəfindən yaradılmış cəmiyyət bir-birindən nə ilə fərqlənir?
- Cəmiyyətin həyatında incəsənətin hansı rolu vardır?
- İncəsənətin formalaşmasında cəmiyyətin hansı rolu var?
- İncəsənət nümunəsinin vasitəsilə hər hansı hadisəyə olan münasibətimizi necə ötürə bilərik?
- Qədim dövrlərin bədii təcrübəsini bilmək bizə nə üçün lazım olacaqdır?

Cəmiyyətin dünyagörüşünü onun incəsənəti müəyyənləşdirir, incəsənət isə bu dünyagörüşünün gözəgörünən formasını verir.

Cəmiyyətin inamı müasir zəmanəsinin incəsənətində öz əksini tapır, incəsənət isə bu ideyaların yayılmasına-bərqərar olmasına qulluq edir.

İnsanların hamısı eynidir – bir başımız, iki əlimiz və iki ayaqlarımız var, amma iki eyni insan mövcud deyil. Bizi müxtəlif hallar narahat edir, fərqli inamlarımız var. Müxtəlif dövrlərdə cəmiyyət fərqli çağırışlar qarşısında dururdu, müxtəlif problemləri həll etməli olurdu. Çətinlikləri gah dinc yolla həll edirdi, gah da – silahla.

Bəşəriyyət tarixi yavaş-yavaş müharibə və mübarizələrin uzun zəncirinə çevrildi. Bəlkə incəsənət bizi birləşdirəcək ki, bir-birimizin mədəniyyətinə hörmət bacarığı ilə bu balaca planetdə dinc yaşamaq yolunu tapaq.

İnsanı başqa canlı varlıqlardan fərqləndirən nədir?
– yaradıcılıq qabiliyyəti.
Bu qabiliyyətin təzahürlərindən biri təsviri incəsənətdir.

Hər bir dövr özünün maraqları ilə seçilir. İncəsənət, dövranın güzgüsü kimi, bu maraqların ifadəçisidir.

İncəsənət gah siyasətin qulluğundadır, gah – dinin, gah – kommersiyanın, bəzən də - təhsilin, əyləncənin və istirahətin. Cəmiyyət incəsənəti yaradır, incəsənət isə cəmiyyətin yaşadığı mühiti. Bu, bir-biri ilə əlaqəli, ikitərəfli bir prosesdir, hansında da söyləmək olmaz ki, əvvəlcə toyuq idi və ya yumurta.

1. MÜASİR CƏMİYYƏTİN ÇAĞIRIŞLARI

Lüğət

Kapella – kiçik ibadətgah

Müasir cəmiyyət necədir? Həmişəki kimi – siyasi, iqtisadi və ya dini zəmində baş verən münaqişələr, inqilablar, müharibələr…. Müasir dövlətlər barış yollarını axtarırlar, cəmiyyətlər birləşməyə çalışırlar. İncəsənət məhz həmin sahədir ki, müxtəlif dildə danışan insanları birləşdirə bilər. Bəlkə incəsənət dünyanı xilas edə bilər?

Mark Rotkonun "Fikir məbədi"

Fərqli inancları və nəzərləri olan insanların barışığı məqsədini XX əsrin incəsənətşünası Mark Rotkonun kapellası əks etdirir. Bu kiçik "fikir məbədi" ABŞ-da Texas ştatının Hyüston şəhərində yerləşir. Kapella divarlarında Mark Rotko tərəfindən bənövşəyi-göyümtül boyakarlıqla yerinə yetirilmiş kətanlar asılmışdır. Onların rəngi izləyicilərə sehrli təsir göstərir. Xristian, yəhudi, müsəlman və buddist yanaşı oturur, fikirlərə qərq olmuş, sakitləşir və bu qəribə məkanı daha xeyirxah və bir-birinə qarşı rəhmli tərk edirlər. Fərqin, anlaşılmazlığın müharibəyə gətirib çıxarmamasına görə, başqasının düşüncəsinə, başqasının mədəniyyətinə çatmalıyıq, müxtəlif cəmiyyətlərə hörmət etməyi öyrənməliyik. Bunda isə bizə incəsənət yardım edəcəkdir. İncəsənətşünaslar axı bir-birlərini sözsüz başa düşürlər. Gəlin, başlayaq.....

kapellanın interyeri



interyer



Hindistanda müasir buddist məbədi

1 TAPŞIRIQ

Le Korbuzyenin və Rotkonun məbədlərini müşahidə et. Onların 20-ci əsrin yaradıcılığına aid olduğuna nə işarə edir?

2 MÜZAKİRƏ ET

Müasir kult memarlığı Orta əsr ənənələrinin davamçısıdır. Müasir nəzərlərin, materialların və texnologiyaların nəzərə alınması ilə Gürcüstanın kult memarlığını necə təsəvvür edirəm?

Ronşan kapellası, Fransa. Memar Le Korbuzie

2. İNCƏSƏNƏT SİYASƏTİN QULLUĞUNDA

Lüğət

Horelyef – yüksək relyef

Batal janrı – tarixi janrın yarımjanrı, döyüş səhnəsini əks etdirir.

Siyasət sözü yunan mənşəlidir. Qədim Yunanıstanda dəyərlər arasında, ilk növbədə, vətənpərvərlik hesab edilirdi. Hər bir vətəndaş öz şəhər-polisinin qarşısında məsuliyyət hiss edirdi. Polisə isə fiziki və mənəvi cəhətdən möhkəm, güclü müdafiəçilər lazım idi. Bu canatmanı incəsənət də sübut edir. Qədim yunan heykəltəraşlığı məhz belə bir vətəndaşlıq idealını bərqərar edir – harmonik inkişaf etmiş atletin "sağlam bədəndə sağlam ruh!". Müasir nöqteyi-nəzərdən, bu yanaşmanı nə dərəcədə düzgün hesab edirsən?

Miron, Diskobol, e.ə.V əsr

Perqamda Zevs mehrabının ellinist relyefi nəhənglərlə tanrıların döyüşünü əks etdirir. Antik plastikada bu, kifayət qədər yayılmış mifik süjet siyasi hadisəyə həsr olunur. Mehrab Kiçik Asiya çarı II Evmene tərəfindən qallar üzərində əldə edilmiş qələbənin qeyd edilməsi üçün ucaldılmışdı. Yarımvəhşi nəgənglərdə bərbər qallar qəbiləsi nəzərdə tutulur, Olimp allahları isə Perqam çarlığının yüksək inkişaf etmiş vətəndaşlarını canlandırırlar. Burada mif də siyasətin qulluğunda durur!

Perqam məbədinin relyefi, e.ə.II əsr

Romada Konstantin tağı, 315-ci il

Trayan sütunu, I əsr, Roma

Romalılar imperiya sərhədlərini genişləndirməyi, yeni torpaqları zəbt etməyi, başqa xalqları özlərinə tabe etməyi özlərinin əsas borcları hesab edirdilər. Onlar incəsənəti yalnız hərbi hökmranlığın qulluğunda təsəvvür edirdilər. Hətta əyləncə kimi qurulan amfiteatrlar da camaata dəhşətli görüntülər təklif edirdilər ki, qan axıdılmasına vərdiş etsinlər.

İmperatorların hərbi nailiyyətlərini və mühüm hadisələri əbədiləşdirmək üçün romalılar zəfər tağlarını ucaltmağa başladılar. Bir çox hallarda tağları qələbəni əks etdirən tarixi relyeflər bəzəyirlər.

İmperatorlara həsr edilmiş sütunların batal relyefləri də tərif yağdıran tarixi sənədlərdir, bir növ təsviri səlnamədir.

Ticarət sayəsində, imperatorun təsviri həkk edilmiş Roma sikkələri bütün imperiyada sürətlə yayılırdı və uzaq müstəmləkələrin hökmranlarının kimliyini tanıdırdı.

Müxtəlif dövrlərin Roma sikkələri

Fransız rəssamı Jan Ogüst Dominik Enqr (1780-1867) yaratdığı büt ilə Fransa imperatoru Napoleon Bonapartı yüksək səviyyədə təqdim edir. Napoleon, mifik Zevs kimi, əzəmətlə taxtda oturmuş, dəfnə çələngi tac kimi durur, yuxarı qaldırdığı əlində hökmranlıq rəmzi olan səltənət əsasını tutmuşdur. Sanki bir azdan şimşək çaxacaqdır.

Bir çox hallarda, tərif yağdırmaq və şişirtmək həqiqətin bəzədilməsini, şəxsiyyətin ideallaşdırılmasını bildirir.

Lüğət

İdeologiya – dəyərlər və təsəvvürlər. Bunlar insanların həqiqətə və bir-birinə münasibətlərini müəyyənləşdirirlər

1 MÜZAKİRƏ ET

- Müxtəlif dövrlərin cəmiyyətləri tərəfindən yaradılmış incəsənət bir-birindən nə ilə fərqlənir?
- Müxtəlif dövrlərdə incəsənət nəyə qulluq edir?

2 TAPŞIRIQ

- İncəsənətçilər siyasətçiləri hansı məqsədlə təsvir edirdilər?
- Onlar siyasətçiləri tərifləmək üçün hansı bədii üsullara müraciət edirlər?

Fidiasın Olimp Zevsi heykəlinin rekonstruksiyası

Jan Ogüst Dominik Enqr, "Napoleon imperator taxtında" 1806-cı il

XIX əsrin fransız rəssamı Ejen Delakrua Fransa inqilabını canlandırmışdır. Onun "Barrikadalarda azadlıq" boyakarlıq kətanı Fransa inqilabının müxtəlif tarixi hadisələrinin qəhrəmanlarını birləşdirir. Qadın onlara yuxarı qaldırılmış üçrəngli bayraqla yol göstərir. Əsər tamaşaçını daha yaxşı gələcək üçün inqilab mübarizəsinə səsləyir.

Sovet İttifaqı Respublikalarının hər birinin paytaxtında ucaldılmış oxşar heykəl sosializm **ideologiyasına** qulluq edir və camaat arasında işıqlı gələcəyə inamı bərqərar edirdi.

Perqam relyefi illüstrasiyasında qadın ilahəsi Nikenin təsvirini tap.

Necə düşünürsən, Delakruanın və Muxinanın qəhrəman qadınlarının Qədim Yunanıstanın qələbə ilahəsi Nikenin təsvirləri ilə oxşarlığı təsadüfidirmi və ya düşünülmüş?

İlahə Nikenin antik relyefi

Vera Muxina, "Fəhlə və kolxozçu",
1937-ci il

Ejen Delakrua, "Barrikadalarda azadlıq",
1830-cu il

XX əsrin Sovet Gürcüstanı dövranının təbliğat plakatları

Sovet İttifaqında hökumət şöbəsi, belə adlanan "agitprop" mövcud idi. Onun məqsədi təbliğat və təşviqat yolu ilə kommunist ideologiyasının bərqərar edilməsi idi. Siyasi məqsədlərin əldə edilməsində isə onların əsas alətləri incəsənət idi. Şöbə çap nəşrlərini, televiziyanı, kinonu, teatrı, ədəbiyyatı və təsviri incəsənəti nəzarətdə saxlayırdı. Agitprop senzuranı tənzimləyirdi ki, nəyi dərc etmək olar və nəyi olmaz. Sadə dildə desək, camaatın "gözünə kül tökürdülər", mövcud problemləri gizlədir, aldadırdılar. Onların məqsədi insanın siyasi seçiminə, qərarlarına təsir göstərmək və sifarişçinin, yəni dövlətin mövqeyinə uyğunlaşmaq idi. Çağırışlar üçün onlar eyni bədii üsullara müraciət edirdilər. Belə bir posterlərin müəllifləri cəmiyyətin və kütlələrin psixologiya biliyindən istifadə edirdilər və camaatın hisləri ilə manipulyasiya edirdilər. Onların fəndlərini bildikdə, tilova düşmək də asan olmayacaqdı.

J. M. Fleq, "ABŞ ordusunda mənə lazımsan", 1917-ci il

İ. Toidze, "Ana Vətən çağırır!", 1941-ci il

Lüğət

Təşviqat – şifahi, çap və ya təsviri üsulla cəmiyyətin siyasi dərrakəsinə təsirin göstərilməsi, təşviqatçının xeyrinə onu inandırmaq cəhdi.

Təbliğat – cəmiyyətin nəzərlərinə şifahi, şüarla, təsviri vasitələrlə ideya təsiri. Təbliğat cəmiyyətə yalnız siyasi mənfəətli, natamam məlumatı çatdırır.

Lozunq – şüar; lakonik, asanlıqla yadda qalası ifadə.

Çinin kommunist lideri, diktator Mao Zeduni, 1968-ci il

Almaniya nasist posteri, Adolf Hitlerin təsviri ilə, 1936-ci il

Seçki plakatları küçədə

3 Müxtəlif ölkələrin reklam və təbliğat plakatlarını axtar tap və müşahidə et

- Plakatlar hansı məzmunda çağırışları əks etdirirlər?
- Onlarda hansı ümumi əlamətləri görürsən?
- Jestikulyasiya necədir?
- Təşviqat plakatlarında hansı rənglər üstünlük təşkil edir və nə üçün?
- Yazılar hansı rəngdə və ölçüdədirlər?
- Mətn qısadır və ya uzun?
- Bu nə üçün vacibdir?
- Çağırış hansı məzmundadır?
- Təşviqat plakatları reklam plakatlarından nə ilə fərqlənirlər?

4 TAPŞIRIQ

Rəqəmsal albom:
Ətrafında yapışdırılmış plakatları və banerləri müşahidə et. Bunlardan hansı çağırışı əhatə edir? Onların şəkillərini çək və bloquna yüklə. Kolleksiyanın elektron albomunu yoldaşlarınla paylaş.

Şrift:
Word-də gürcü şriftinin müxtəlif nümunələrini axtar və yoxla.
Elə bir şrift seç ki, asanlıqla qavranılan olsun.